AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 77-88
https://doi.org/10.59849/2664-5432.2026.2.77

Xədicə HEYDƏROVA*

QAF (ق) VƏ TA (ط) QRAFEMLƏRİNİN TARİXİ FONETİK DƏYƏRİ: AZƏRBAYCAN TÜRKCƏSİNİN ARTİKULYASİYA BAZASI VƏ SƏS ƏVƏZLƏNMƏLƏRİ

XÜLASƏ

Məqalədə ərəb qrafikalı Azərbaycan-türk mətnlərində kaf (ك), qaf (ق) və ta (ط) qrafemlərinin tarixi fonetik dəyəri, onların ifadə etdiyi səslərin artikulyasiya xüsusiyyətləri və XIII əsrdən müasir dövrə qədər keçirdiyi fonetik dəyişmələr araşdırılır. Tədqiqatda hərf və səs münasibətlərinin tarixi inkişafı Azərbaycan türkcəsinin artikulyasiya bazası, sait ahəngi, səs əvəzlənmələri və ənənəvi orfoqrafiya prinsipləri əsasında təhlil edilir. İbn Mühənnanın lüğətindəki qrafik-fonetik qeydlər Pietro Della Valle, Mirzə Kazımbəy, Əhməd Cəfəroğlu, Lazar Budaqov, Vasili Radlov, Platon Melioranski və Mikayıl Müşfiqin əsərlərindəki dil materialları ilə müqayisə olunur. Müxtəlif dövrlərə aid mənbələrin müqayisəsi əski əlifbada eyni qrafemin fərqli fonetik dəyərlər daşıdığını, ənənəvi yazılışla canlı danışıq dili arasında müəyyən fərqlərin mövcudluğunu üzə çıxarır.

İbn Mühənnanın qeydə aldığı q–x, q–ğ və ğ–q əvəzlənmələrinin müasir Azərbaycan dilində də qarşılığının olması bu münasibətlərin tarixi davamlılığını göstərir. Həmin uyğunluqlar qafın ifadə etdiyi səsin Azərbaycan türkcəsinin öz fonetik sistemi əsasında izah edilməli olduğunu göstərir. Ta qrafeminin isə türk sözlərində ərəb dilindəki emfatik [tˁ] fonemini deyil, əsasən qalın saitli hecada işlənən /t/-ni ifadə edən orfoqrafik işarə olduğu müəyyənləşdirilir. Azərbaycan türkcəsinin tarixi inkişafında bir sıra sözlərdə t>d cingiltiləşməsi baş vermiş, digər sözlərdə isə ilkin /t/ səsi qorunmuşdur. Tədqiqatda kaf qrafeminin /k/, /g/ və sağır nun /ŋ/ səslərinin yazılışında işlənməsi də nəzərdən keçirilir və bu səslərin qrafik ifadəsində müxtəlif əlyazma ənənələrinin mövcudluğu göstərilir. Əldə edilən nəticələr ərəb qrafikalı Azərbaycan-türk abidələrinin transfoneliterasiyası zamanı qrafemlərin mexaniki oxunuşuna deyil, onların tarixi fonetik dəyərinə, işlənmə mövqeyinə və Azərbaycan türkcəsinin artikulyasiya xüsusiyyətlərinə əsaslanmağın zəruriliyini ortaya qoyur.

Açar sözlər: *qaf (ق), ta (ط), kaf (ك), sağır nun, İbn Mühənna, Azərbaycan türkcəsi, tarixi fonetika, q>x, q>ğ, ğ>q, t>d, artikulyasiya bazası, transfoneliterasiya.*

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent.
Email: heyderova73@mail.ru

Əski əlifbanın tarixi-fonetik təhlilində ən mühüm metodoloji məsələ hərflə səsi eyniləşdirməməkdir. Ərəb qrafikasının ق, ط və ك işarələri ilkin olaraq ərəb dilinin fonoloji sisteminə aid olsa da, türk dillərində həmin işarələr yerli artikulyasiya bazasına uyğunlaşdırılmış, bəzən bir qrafem bir neçə səsi, bəzən də eyni səs müxtəlif qrafemlərlə ifadə edilmişdir. Buna görə ط yazıldıqda sözün mütləq ərəb dilindəki emfatik [tˁ] ilə, ق yazıldıqda isə bütün dövrlərdə eyni [q] ilə tələffüz olunduğunu söyləmək olmaz. Tarixi yazı ənənəsi, sait ahəngi, mövqe, şivə və katib praktikası birlikdə nəzərə alınmalıdır.

Təhlilin əsas materialını İbn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan" lüğətinin türkcə hissəsi, Pietro Della Vallenin XVII əsr qrammatikası, Əhməd Cəfəroğlunun "Kitâb al-idrâk" nəşrindəki türkcə lüğət indeksi, XIX əsr rus-Avropa türkologiyasının transkripsiya qeydləri, Mirzə Kazımbəy, L.Budaqov, Radlovun Azərbaycan dialektinə dair müşahidələri və XX əsrin əvvəlinə aid Müşfiq nümunələri təşkil edir.

Tədqiqatın əsas məqsədi ərəb qrafikalı Azərbaycan-türk mətnlərində qaf (ق), kaf (ك) və ta (ط) qrafemlərinin tarixi fonetik dəyərini müəyyənləşdirmək, onların ifadə etdiyi səslərin Azərbaycan türkcəsinin artikulyasiya bazasına uyğun inkişaf qanunauyğunluqlarını üzə çıxarmaqdır. Müxtəlif dövrlərə aid tarixi-fonetik faktların müqayisəli təhlili əsasında qaf (ق) qrafeminin kaf (ك) ilə eyniləşdirilməsinin, xüsusilə qafla yazılmış sözlərin müasir Türkiyə türkcəsinin tələffüz normalarına uyğun olaraq k ilə transkripsiya edilməsinin Azərbaycan türkcəsinin tarixi fonetik sistemi ilə tam uzlaşmadığı əsaslandırılır.

Qafın oxunuşu məsələsi Azərbaycan mətnşünaslığında müxtəlif şəkildə həll olunmuşdur. Klassik tərcümə ədəbiyyatının dəyərli abidəsi olan «Şeyx Səfi təzkirəsi»nin («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi) ilk elmi nəşrində qafla yazılan sözlərin bir qismi k ilə transfoneliterasiya edilmişdir: *heç kimsənün xəbəri yok idi* [Şeyx Səfi təzkirəsi: 2006, s. 49], *Tanrıya çok-çok şükrlər qıldı* [yenə orada, s. 50], *bir şəhərə yakın ola* [yenə orada, s. 39], *Şeyxliğ kimə yakışur?* [yenə orada, s. 41], *varmak gərəksən* [yenə orada, s. 149], *dağ olmak gərək* [yenə orada, s. 248], *yukaru varmağa* [yenə orada, s. 355], *mey qokusi* [yenə orada, s. 426], *okumışam* [yenə orada, s. 675]. Nəşrdə bu sözlərin x və q ilə verilmiş variantları da vardır: *yox, çox, yaxın, yuxaru, qoxusi, oxumışam, olmaq, varmaq*. Bu paralellik böyük həcmli əlyazma mətninin nəşri zamanı qafın oxunuşu ilə bağlı qarşıya çıxan çətinlikləri əks etdirir və məsələnin xüsusi tədqiqata ehtiyacı olduğunu göstərir.

Qafın söz ortasında və sonunda k ilə verilməsinin nəzəri əsaslandırması görkəmli mətnşünas alim M.Nağısoylunun Şirazinin «Gülşəni-raz» tərcüməsinə (1426) həsr olunmuş monoqrafiyasında verilmişdir. Müəllifin fikrincə, «söz sonunda və ortasında işlənən «qaf» hərfi ... nüsxədə, əsasən, kipləşən-patlayan, kar, dilarxası-yumşaq damaq samiti olan «k'» səsini ... ifadə edir»; alim bu səsin «Şirazinin yaşayıb-yaratdığı bölgə üçün daha səciyyəvi» olduğunu da nəzərə alaraq qafı mətnin transfoneliterasiyasında «daha çox «k'» samiti ilə» vermişdir. Müəllifin qeydinə görə, K.Şərifli və A.Şəriflinin «Mehri və Vəfa» poemasının nəşrində də

eyni prinsip əsas götürülmüşdür [Nağısoylu: 2011, s. 45]. Bu yanaşmaya uyğun olaraq nəşrdə söz ortasında və sonunda qaf k ilə (*bakdı, çok, çokluk, yokdur* [yenə orada, s. 155], *okur* [yenə orada, s. 167], *yakar* [yenə orada, s. 188]), söz əvvəlində isə q ilə (*qamu, qılur, qarşu* [yenə orada, s. 155]) verilir; bəzi sözlərdə hər iki mövqe bir arada çıxış edir: *çıkıncaq, bakıncaq* [yenə orada, s. 253], *yoklıq* [yenə orada, s. 226]. Alimin əlyazmadan gətirdiyi *uçmağ–uçmaq, yok–yoğ, ok–ox, ayıq–ayıx, qorku–qorxu* qarşılıqları [yenə orada, s. 44] isə bu tədqiqat üçün xüsusilə qiymətlidir, çünki qafın ğ və x ilə əvəzləndiyini göstərir. Azərbaycan türkcəsində incə saitli sözlərdəki damaq k samiti saitlə başlayan şəkilçidən əvvəl y ilə əvəzləndiyi halda (*çörək–çörəyi*), ğ və x ilə əvəzlənmə q üçün səciyyəvidir. Bu baxımdan M.Nağısoylunun «Gülşəni-raz» əlyazmasından üzə çıxardığı material İbn Mühənnanın qeydə aldığı q–x və q–ğ uyğunluqları ilə üst-üstə düşür və qafın səs dəyərinin həmin uyğunluqlar əsasında da izah edilə biləcəyini düşünməyə imkan verir.

İbn Mühənna lüğətində qrafem-səs münasibəti

Qaf (ق) və q–x–ğ səs uyğunluqları. İbn Mühənna lüğətində qafla işarələnən səsin x ilə əvəzlənməsi *toqlı* (یلقوت)–*toxlı* (یلخوت), *səqtadı–səxtadı* qarşılıqlarında öz əksini tapır. Müəllif eyni səhifədə qafın ğeynlə, eləcə də ğeynin qafla əvəzlənməsini ayrıca göstərir [İbn Mühənna: 1338–1340/1922, s. 80; Heydərova: 2022, s. 177]. Bu məlumatlar qafın tarixi səs qarşılığının müəyyənləşdirilməsində q–x, q–ğ və ğ–q münasibətlərinin birlikdə nəzərə alınmasını tələb edir. Müasir Azərbaycan dilində də qarşılığı olan həmin uyğunluqlar qafın ifadə etdiyi səsin dilin öz fonetik sistemi əsasında izah edilməsinə əsas verir. Dədə Qorqud dastanında eyni fonetik hadisəni müşahidə edən Ə.Dəmirçizadə yazır: "Eyni cinsli sözün ortasında və ya sonunda bə'zən "q" bə'zən də "x" işlənmişdir; məs.: "*qaqmaq*" *qaxmaq*, "*aqşam*" "*axşam*", "*oq*" "*ox*" və s." [Dəmirçizadə: 1999, s. 28]. Bu onu göstərir ki, klassik ədəbiyyatda *oq, oqumaq* kimi yazılsa da, canlı danışıq dilində *ox, oxumaq* deyilmişdir.

İbn Mühənnanın qeydə aldığı q–x, q–ğ və ğ–q əvəzlənmələri qafın Azərbaycan türkcəsindəki səs qarşılığının müəyyənləşdirilməsi üçün bir-biri ilə əlaqəli dəlillərdir. Buna görə Azərbaycan türkcəsinə aid tarixi mətnlərdə قوا sözünün *oq* kimi verilməsi əsaslıdır.

İbn Mühənna materialındakı yönlük halın *-qa/-ka* (اق، اك), feili sifətin *-ğan/-gan* və gələcək zamanın *-ğay/-gay* formaları qaf–kaf fərqinin şəkilçilərdə də əks olunduğunu göstərir. "Bizim ölkənin türkləri"nə aid *nə olğay?* variantı və şəkilçinin *-ğay, -kay, -gay* paralelləri həmin dövrdə arxa sıra kipləşən və sürtünənlərin bir-birini əvəz etdiyini təsdiqləyir [İbn Mühənna: 1338–1340/1922, s. 80, 117; Melioranski: 1900, s. LXXII–LXXIII].

Ta (ط): emfatik ərəb səsi deyil, türk /t/-sinin qrafik variantı. İbn Mühənnanın səs uyğunluqlarını bildirən "بالطاء والتاء بالصاد السين" qeydi sözün qalın fonetik mühitində sinin sadla, tənin isə ta ilə verildiyini göstərir. Bu cümlə ط-nin türk materialında ayrıca emfatik [tˁ] fonemini yox, əsasən qalın saitli hecada

işlənən /t/-ni bildirən qrafik vasitə olduğunu düşünməyə əsas verir. Başqa sözlə, burada ərəb əlifbasının "qalın" hərfi türk dillərindəki sait ahəngini görünən etmək üçün funksionallaşdırılmışdır.

Lüğətdə *atmaq* sözünün آطمق şəklində verilməsi bu qənaəti möhkəmləndirir: müasir Azərbaycan dilində söz *atmaq* kimi /t/ ilə işlənir və ط qrafemi ayrıca emfatik fonemin tarixi izini yaratmır. Eyni zamanda *dutuşğay biz* nümunəsində qalın saitli hecada ط-nin seçilməsi qrafik prinsipin leksik və morfoloji materialda tətbiqini göstərir [İbn Mühənna: 1338–1340/1922, s. 117; Heydərova: 2022, s. 175]. Buna görə ط-ni hər yerdə d kimi transkripsiya etmək də düzgün deyil: *tağ>dağ, turmaq>durmaq* tipli cingiltiləşmə müəyyən söz və mövqelərdə baş vermiş tarixi prosesdir; *atmaq* kimi sözlərdə isə t qorunmuşdur.

İbn Mühənna lüğətində /g/ və /ŋ/ səslərinin qrafik ifadəsi. İbn Mühənna lüğətində /g/ üçün kafın altında üç nöqtəli ڭ işarəsi, sağır nun /ŋ/ üçün isə نڭ yazılışı işlədilmişdir. Buradakı نڭ səs birləşməsi kimi deyil, bir fonemi – dilardı burun samitini bildirir [İbn Mühənna: 1338–1340/1922, s. 73–75; Heydərova: 2025, s. 79–81]. Deməli, müəllif /k/, /g/ və /ŋ/ səslərini eyni səslənmə kimi qəbul etmir, mövcud ərəb qrafikasını əlavə nöqtə və qrafemlə zənginləşdirərək türk artikulyasiyasına uyğunlaşdırır.

Sonrakı mətnlərdə bu dəqiqlik həmişə qorunmur. Tək kaf hərfi bu üç səsi eyni zamanda ifadə etmək üçün istifadə olunmuşdur, məsələn, Kitabi-Dədə Qorqud dastanında olduğu kimi. Yaxud sağır nun bəzi mənbələrdə kaf nun diqrafı ilə, k və g isə tək kaf ilə verilir, məsələn, "Tibbnamə" əlyazmasında olduğu kimi. Bu nümunələr bir tərəfdən kafın /k/ dəyərini, digər tərəfdən isə müxtəlif abidələrin orfoqrafik sistemlərini bir-birinə mexaniki tətbiq etməyin mümkün olmadığını göstərir. İbn Mühənnanın nöqtəli işarələri fonetik fərqləndirmə cəhdi olduğu halda, sonrakı ənənəvi yazıda eyni qrafem bir neçə səsi örtə bilər. Bax: [Heydərova: 2025, s. 79–81].

Qrafem	**Əsas tarixi dəyər**	**Başlıca dəyişimlər**	**Müasir Azərbaycan dilində nəticə**
ق	Kafdan fərqləndirilən; x və ğ ilə uyğunluq-larda iştirak edən səs qarşılığı	q>x; q>ğ; ğ>q	q–x və q–ğ mövqeli uyğunluqları; ayrı-ayrı sözlərdə ğ>q
ط	Qalın saitli hecada türk /t/-si	Bəzi sözlərdə t>d	t və leksikləşmiş d

Cədvəl 1. Qaf və ta qrafemlərinin tarixi-fonetik modeli Mənbə: İbn Mühənna, Della Valle, Kazımbəy, Cəfəroğlu, Radlov materiallarının müqayisəsi əsasında.

XIV əsr "Kitab əl-idrak" əsərində və XVII–XX əsr mənbə və nəşrlərində ق və ط-nın oxunuşu

Əbu Həyyanın XIV əsrə aid "Kitab əl-idrak li-lisan əl-Ətrak" əsərinin Əhməd Cəfəroğlu tərəfindən hazırlanmış 1931-ci il nəşrinin "Türkçe Lûgat İndeksi"ndə qaf latın q-si ilə sistemli şəkildə transkripsiya edilir. Ərəb mətninin 34-cü səhifəsindəki "القاف مع الباء" – "bə hərfi qafla" başlığı altında verilən material indeksdə *baqır, baqıştı* və *baqtı* formalarında göstərilir [Cəfəroğlu: 1931, ərəb mətn, s. 34; Türkçe Lûgat İndeksi, s. 14]. *Alaq, almaq, alqış, alqış qıldı, bardaq, barmaq və başaq* yazılışları da eyni redaksiya prinsipini təsdiqləyir [Cəfəroğlu: 1931, s. 3, 15].

Pietro Della Valle XVII əsrdə hərf cədvəlinin "Valore" – "səs dəyəri" sütununda ق-ni q, ك-ni isə k ilə göstərərək iki qrafemi şüurlu şəkildə fərqləndirmişdir. İtalyan dilində q, əsasən, qu [kw] (italyan dilində q səsi yoxdur) birləşməsində işlənsə də, müəllif *baqcià* və *baqmaq* yazılışlarında q-dan sonra u gətirmir. Buna görə bu işarə adi italyan [kw] birləşməsi deyil, qaf üçün seçilmiş xüsusi transkripsiya vasitəsidir. Onun "kar q" kimi səciyyələndirilməsi müəllifin transkripsiya və təsvir sistemi daxilində qiymətləndirilməlidir [Della Valle: 2020, s. 172]. Bu məlumat qafın kafdan fərqləndirildiyini göstərsə də, müşahidənin aid olduğu dil materialı nəzərə alınmadan həmin səs dəyərini Azərbaycan türkcəsinin bütün tarixi mərhələlərinə şamil etmək olmaz.

Della Vallenin ta (ط) barədə müşahidəsi Azərbaycan türkcəsinin cingiltiləşmə meylini göstərir: onun sözlərinə görə, ط türklərdə çox vaxt, hətta "demək olar ki, həmişə" d kimi tələffüz olunur; قمروط və غاط yazıları *turmaq, tağ* deyil, *durmaq* və *dağ* kimi oxunur [Della Valle: 2020, s. 172]. Bu qeydi ümumi və istisnasız ط=d qaydası kimi qəbul etmək olmaz. İbn Mühənnadakı قمطآ – *atmaq* nümunəsi t-nin qorunduğunu göstərir. Della Vallenin məlumatı daha çox müəyyən sözlərdə artıq leksikləşmiş t>d keçidini və danışıq dilinin ənənəvi yazıdan uzaqlaşdığını göstərir.

A.Pfizmaier 1847-ci ildə eyni hadisəni mövqe baxımından dəqiqləşdirərək ط-nın söz əvvəlində və iki sait arasında d kimi tələffüz edildiyini, Azərbaycan sakinlərinin ط və ت-ni həm yazıda, həm tələffüzdə d-yə çevirdiklərini qeyd edir; داغ/طاغ və دورمق/طورمق qarşılıqları nümunə göstərilir [Pfizmaier: 1847, s. 193; sitat üçün bax: Della Valle: 2020, s. 172, haşiyə 1]. Burada da əsas elmi nəticə ayrıca emfatik ta foneminin mövcudluğu deyil, türk /t/-sinin Azərbaycan artikulyasiya bazasında cingiltiləşməsidir.

Mirzə Kazımbəy qafı "birləşmiş qk" kimi təsvir edir və قمقاب *baqkmaqk* – *baxmaq*, قروق قمق*qkorqkmaq* – *qorxmaq* nümunələrini verir. O, *parmaqk* sözünün saitlə başlayan şəkilçi qəbul etdikdə *parmağın* formasına keçməsini q–ğ əvəzlənməsi kimi göstərir [Kazımbəy: 1839/2017, § 41, s. 199]. Müəllif ayrıca vurğulayır ki, heç bir Avropa dilində ق-yə tam uyğun səs yoxdur; ərəb dilində daha sərt, fars və türk dillərində isə daha incə tələffüz edilir. Rus qrafikasında seçilən гк/"qk" birləşməsi də sadə k-nı deyil, fərqli artikulyasiyanı təqribi ifadə etmək cəhdidir [Kazımbəy: 1839/2017, § 42, s. 199].

Lazar Budaqov lüğətin girişində qafı belə səciyyələndirir: "Буква ق кафъ въ турец. осм. произносится какъ русское к, а въ тат. нарѣчіяхъ какъ бы гк вмѣстѣ"; yəni ق osmanlı türkcəsində rus k-sı kimi, tatar şivələrində isə sanki "гк birlikdə" – qk tipli mürəkkəb səs kimi tələffüz olunur. Burada «тат. нарѣчія» ifadəsi yalnız Volqaboyu tatar dilini bildirmir: XIX əsr rus türkologiyasında «tatar» termini osmanlı türkcəsindən fərqlənən türk ləhcələrinin, o cümlədən Azərbaycan türkcəsinin ümumi adı kimi işlənmişdir. Mirzə Kazımbəy də «Общая грамматика турецко-татарскаго языка» əsərində Azərbaycan türkcəsini «адербайджанское нарѣчіе» adı ilə ayrıca təqdim edir. Budaqovun lüğətinin adı – «Сравнительный словарь турецко-татарскихъ нарѣчій» – da bu termini eyni ümumi mənada işlədir. Deməli, qafın «гк birlikdə» tələffüzü haqqındakı qeyd Azərbaycan türkcəsini də əhatə edir. Onun hərf cədvəlində ق, ك və گ ayrı kateqoriyalar kimi təqdim edilir: qaf arxa "гк", kaf yumşaq k, nöqtəli gaf isə latın g-si ilə müqayisə olunan cingiltili səsdir [Budaqov: 1869–1871, giriş, hərf cədvəli]. Eyni kiril k-sının həm qaf, həm kaf üçün işlənməsi səslərin eyniliyini deyil, transkripsiya əlifbasının imkanlarının məhdud olduğunu göstərir. Azərbaycan materialında *qanımaq* və *qıç* nümunələrinin qafla verilməsi də qrafik ənənənin davam etdiyini göstərir [Budaqov: 1869–1871, II, s. 28].

Vasili Radlov q-ni rus və alman k-sından ayrıca müəyyənləşdirərək onu yaranma yerinə görə daha arxada baş verən kar kipləşən səs sayır [Radlov: 1882, Einleitung, s. XVI–XVII]. Azərbaycan dialektinin söz əvvəli inventarında q və k-ni ayrı verir; q-nın qalın, k-nın incə saitlərlə işlənməsini *qarys, qorun, qujı* və *künder, kämär, känt* nümunələri ilə göstərir [Radlov: 1882, § 167, s. 118–119]. Azərbaycan türkcəsi baxımından onun ümumi transkripsiya təsviri ilə Azərbaycan şivələrindən verdiyi faktlar fərqləndirilməlidir. Bu faktlar içərisində q və k-nin ayrıca göstərilməsi və q–x uyğunluqlarının konkret nümunələrlə verilməsi xüsusi əhəmiyyət daşıyır.

Radlovun Həmədan və Təbriz şivələrinə aid *aralyx~aralyq, ajax~ajaq, tobux~tobuq, dodax~dodaq* qarşılıqları q>x keçidinin XIX əsrdə də canlı olduğunu göstərir [Radlov: 1882, § 258–259, s. 175–176; § 267–268, s. 178–179]. § 167-də x səsinin söz əvvəlində nadir, əsasən alınmalarda işlənməsi, § 317-də isə "x, görünür, q-nı yalnız söz daxilində əvəz edir" qeydi verilir [Radlov:1882, § 317, s. 203–204].

Platon Melioranski söz əvvəlində ق-ni dil-arxası velar k, ك və ڭ işarələrini isə dil-arxası-damaq k və g kimi qarşılaşdırır; k~g tərəddüdünü öz dövründə daha çox Azərbaycan dialektinə xas sayır və Radlovun § 167-ci bəndinə istinad edir [Melioranski: 1900, s. XXXIV]. Onun terminologiyasında qaf üçün k işarəsinin işlədilməsi səsin müasir k ilə eyniliyi demək deyil: "velar" qeydi və kaf/g sırası ilə ayrıca qarşılaşdırma daha arxa artikulyasiyanı bildirir.

Melioranski nüsxələrinin müqayisəsi yazı ilə tələffüz arasındakı fərqin başqa sözlərdə də olduğunu göstərir. İbn Mühənna lüğətinin İstanbul nüsxəsində *vurmaq* feili yalnız روا – *urmaq* şəklində verilsə də [İbn Mühənna: 1338–1340/1922, s. 66], Melioranski iki əlyazmada روو – *vurmaq* (0114), bir əlyazmada isə روا – *urmaq*

(073) variantlarının olduğunu qeydə almışdır [Melioranski: 1900, 0114, 073]. Radlovun lüğətində kök *ur-* deyil, *vur-* şəklindədir: *vur, vurdur, vurul, vuruş, vuruştur* [Radlov: 1893–1911, IV/2, s. 1982–1984]; Budaqovda da *vurmaq* forması göstərilir və qeyd edilir ki, yazı ənənəsində *urmaq* olsa da, Azərbaycan dialektində *vurmaq* şəklində tələffüz olunur [Budaqov: 1869-1871, I, s. 126]. Beləliklə, *urmaq* tarixi-ənənəvi yazılış və transliterasiya formasıdır; Azərbaycan dilində feil əzəldən *vurmaq* kimi işlənmiş və müasir ədəbi dildə də *vurmaq* şəklində normalaşmışdır. Bu paralel qaf və ta üçün metodoloji əhəmiyyət daşıyır: ənənəvi qrafik forma real tələffüzü həmişə birbaşa göstərmir. XX əsrin əvvəlində Mikayıl Müşfiq şeirlərində *doqrayır, uyqu, çaq, baq, qadar* formaları qeydə alınmışdır. Bu, əski əlifba ilə yazılmış mətnlərdə tarixi-ənənəvi prinsipin hələ də qorunduğunun göstəricisidir.

Müasir Azərbaycan dilində nəticələr

Tarixi qafın müasir Azərbaycan dilində qarşılıqları. Qaf qrafemi ilə bağlı tarixi material müasir Azərbaycan dilindəki q, x və ğ səsləri ilə müqayisə oluna bilər. Söz əvvəlində *qara, qapı, qorxu* kimi sözlərdə q işlənir. XX əsrin əvvəllərində rus dilindən alınmış *komsomol, kommunist, komandir* sözlərinin xalq danışığında və həmin dövrün əski əlifbalı yazılarında *qəmsəmol, qəmunist, qəməndir* şəklində işlənməsi və yazılması q samitinin alınma sözlərin mənimsənilməsindəki rolunu göstərir. Ərəb mənşəli *ğeyri, ğəzəl, ğaib* formalarının *qeyri, qəzəl, qaib* şəklinə keçməsi də söz əvvəlindəki yad /ğ/ səsinin Azərbaycan dilinin artikulyasiya bazasına uyğun olaraq /q/ ilə əvəzləndiyini göstərir. Bu nümunələr XX əsrin əvvəllərində q samitinin Azərbaycan dilinin səs sistemində möhkəm yer tutduğunu və alınma sözlərin tələffüzünə fəal təsir göstərdiyini nümayiş etdirir. Ğeynin qafla əvəzlənməsinin İbn Mühənna tərəfindən də ayrıca qeyd olunması həmin istiqamətdəki səs uyğunluğunun tarixi müqayisəsi üçün əhəmiyyətlidir. Mənbənin bu bəndində nümunə verilmədiyindən müqayisə ümumi əvəzlənmə istiqaməti səviyyəsində aparılır [İbn Mühənna: 1338–1340/1922, s. 80].

İbn Mühənnanın *toqlı–toxlı, səqtadı–səxtadı* qarşılıqları ilə Radlovun *aralıq–aralıx, ayaq–ayax* nümunələri q–x münasibətinin müxtəlif tarixi mərhələlərdə qeydə alındığını göstərir. Qafın ğeynlə əvəzlənməsi haqqında tarixi qeyd də müasir Azərbaycan dilindəki q–ğ uyğunluqları ilə müqayisə üçün əhəmiyyətlidir. Bu münasibətlər qafın səs dəyərinin Azərbaycan türkcəsinin öz fonetik qanunauyğunluqları əsasında izahını dəstəkləyir.

Müasir orfoepiya normalarında həmin tarixi meyl bu gün də tələffüz qaydası kimi davam edir: Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı q *balıq* [*balıx*], *bucaq* [*bucax*], *qonaq* [*qonax*], *otaq* [*otax*] tipində x kimi; saitlə başlayan şəkilçi və ya söz qarşısında isə *otağa, balığın, bulağotu, qonağ evi* tipində ğ kimi tələffüz olunur [Azərbaycan dilinin orfoepiya normaları: 2021, b. 3.11.1–3.11.4]. Beləliklə, İbn Mühənnanın qeydə aldığı q–x, q–ğ və ğ–q əvəzlənmələri ilə müasir Azərbaycan dilindəki uyğunluqlar arasında tarixi əlaqə müşahidə olunur. Tarixi mənbələrdəki şivələr arasındakı səs fərqləri ilə müasir dildə səsin mövqeyə görə

dəyişməsi fərqləndirilməlidir. Bununla belə, bu faktların müqayisəsi q–x–ğ münasibətlərinin davamlılığını üzə çıxarır.

Tarixi ta (ط) qrafeminin t və d nəticələri. Müasir Azərbaycan əlifbasında ط üçün ayrıca işarə və ayrıca emfatik samit yoxdur. Türk sözlərində tarixi ط-nin fonetik davamı ya t kimi qorunmuşdur – *atmaq, tutuşmaq* – ya da sözün tarixi inkişafında d-yə cingiltiləşmişdir – *tağ>dağ, turmaq>durmaq*. Buna görə ərəb qrafikalı mətnin transfoneliterasiyasında iki mərhələ ayrılmalıdır: diplomatik transliterasiyada ط ayrıca göstərilə bilər; fonetik transkripsiyada isə konkret sözün Azərbaycan türkcəsindəki tarixi tələffüzü t və ya d ilə bərpa olunmalıdır. Della Valle və Pfizmaierin qeydləri d-li oxunuşu təsdiqləyir, İbn Mühənnadakı *atmaq* nümunəsi isə ط=d bərabərliyinin istisnasız olmadığını göstərir.

Beləliklə, tədqiqatın nəticələri aşağıdakı şəkildədir:

1. Qaf (ق). İbn Mühənnanın qeydə aldığı *toqlı–toxlı, səqtadı–səxtadı* qarşılıqları q–x münasibətini, qafın ğeynlə və ğeynin qafla əvəzlənməsi haqqında qeydləri isə q–ğ və ğ–q uyğunluqlarını göstərir [İbn Mühənna: 1338–1340/1922, s. 80]. Bu uyğunluqların müasir Azərbaycan dilində mövqeli qarşılıqları vardır: Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı q söz sonunda və samit qarşısında x, saitlə başlayan şəkilçi və ya söz qarşısında ğ kimi tələffüz olunur. Ona görə qaf qrafeminin tarixi səs dəyəri Azərbaycan türkcəsinin öz fonetik sistemi əsasında, səslərin hansı sözlərdə və hansı mövqelərdə dəyişdiyi nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

2. Tarixi mənbələr qafın kafdan fərqli səs olduğunu təsdiqləyir. Della Valle ق-ni q, ك-ni k ilə fərqləndirmiş, Mirzə Kazımbəy qafı "birləşmiş qk", Lazar Budaqov isə "гк birlikdə" kimi xarakterizə etmişdir; bu təsvirlər qafın sadə k olmadığını və dövrün qrafikası ilə təqribi ifadə edildiyini göstərir [Kazımbəy: 1839/2017, § 41–42, s. 199; Budaqov: 1869–1871, giriş, hərf cədvəli]. Cəfəroğlunun 1931-ci il nəşrində "الباء مع القاف" bölməsinin sözlərinin indeksdə *baqır, baqışdı, baqtı* kimi verilməsi də ق→q transkripsiyasını əks etdirir.

3. Ta (ط) türk sözlərində ərəb dilinin emfatik [tˤ] fonemini deyil, əsasən qalın saitli hecada işlənən /t/-ni bildirən qrafik variant olmuşdur. Della Valle və Pfizmaierin *dağ, durmaq* nümunələri t>d cingiltiləşməsini, İbn Mühənnanın *atmaq* forması isə t-nin qorunmasını göstərir. Müasir dildə tarixi ط-nin ayrıca səs kimi qarşılığı yoxdur; nəticə sözə görə t və ya d-dir. Bu səbəbdən ط-ni mexaniki olaraq nə t, nə də d ilə oxumaq mümkün deyil.

4. İbn Mühənna materialında اور – *urmaq* qrafik forması ilə yanaşı, *vur-* kökündən yaranmış formalar da qeydə alınmışdır. Bu, klassik ədəbiyyatdakı *urmaq* yazılışının tarixi-ənənəvi orfoqrafiya faktı olduğunu, canlı dildə isə feilin *vurmaq* şəklində işləndiyini göstərir [Melioranski: 1900, 0114, 073; Radlov: 1893–1911, IV/2, s. 1982–1984; Budaqov: 1869–1871, I, s. 126]. Bu paralel qaf və ta üçün də metodoloji əhəmiyyət daşıyır: ənənəvi qrafik forma real tələffüzü həmişə birbaşa əks etdirmir.

5. Ərəb qrafikalı Azərbaycan-türk mətnlərinin transkripsiyasında tarixi fonetik qanunauyğunluqlar əsas götürülməlidir. q–x, q–ğ və ğ–q uyğunluqları, qaf və kaf qrafemlərinin artikulyasiya fərqləri göstərir ki, qafla yazılmış Azərbaycan türkcəsi sözlərini müasir Türkiyə türkcəsinin tələffüzünə uyğun olaraq k ilə oxumaq Azərbaycan türkcəsinin tarixi fonetik sistemi ilə tam uzlaşmır. Azərbaycan abidələrinin nəşrlərində qafın söz ortasında və sonunda k ilə verilməsi təcrübəsi də mövcuddur («Şeyx Səfi təzkirəsi», «Gülşəni-raz»); M.Nağısoylunun «Gülşəni-raz» əlyazmasından üzə çıxardığı q–ğ və q–x əvəzlənmələri isə bu məsələnin q səsi istiqamətində də araşdırılmasına əsas verir. Ona görə اوق kimi yazılışların Azərbaycan türkcəsinə aid tarixi mətnlərdə *oq* şəklində transliterasiyası dilin qrafik ənənəsinə və tarixi fonetik inkişafına uyğun gəlir. Hər bir abidənin transkripsiyasında onun dil mənsubiyyəti, dövrü, qrafik xüsusiyyətləri və fonetik sistemi birlikdə nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nazirlər Kabineti (2021). "Azərbaycan dilinin orfoepiya normaları"nın təsdiq edilməsi haqqında, 18 iyun 2021-ci il, № 175.

2. Cəfəroğlu, Əhməd (1931). Abû-Hayyân: Kitâb al-idrâk li-lisân al-Atrâk. İstanbul: Evkaf Matbaası.

3. Della Valle, Pietro (2020). Türk dilinin qrammatikası: tərcümə, tədqiq və şərh. Tərcümə və şərh edənlər: İdris Abbasov, Günel Bayramova. Bakı: Zərdabi Nəşr MMC.

4. Dəmirçizadə, Ə.M. (1999). "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı: Elm, 140 s.

5. Heydərova, Xədicə (2022). İbn Mühənna lüğətinin İstanbul nüsxəsində Azərbaycan dilinə xas xüsusiyyətlər. Filologiya və sənətşünaslıq, № 1, s. 173–179.

6. Heydərova, Xədicə (2025). "Sağır nun" sonor samitinin əski əlifbada qrafik həlli və onun XIII–XX əsr Azərbaycan yazılı abidələrində tətbiqi qaydaları. Türkologiya, № 2, s. 78–86. DOI: 10.59849/2313-5204.2025.2.78.

7. İbn Mühənna, Cəmaləddin (1338–1340 [1920–1922]). Kitâb Hilyetü'l-İnsân ve Halbetü'l-Lisân. (ərəb dilində). Nəşrə hazırlayan: Kilisli Rifat Bilge. İstanbul: Matbaa-i Âmire. Tam rəqəmsal surət (müraciət tarixi: 28.08.2026): https://archive.org/details/hilyetelinsanveh01ibnuoft

8. Müşfiq, Mikayıl (2004). Seçilmiş əsərləri. Tərtib edən Gülhüseyn Hüseynoğlu. Bakı: Şərq-Qərb, 352 s.

9. Nağısoylu, Möhsün (2011). Şirazinin «Gülşəni-raz» tərcüməsi (filoloji-tekstoloji araşdırma, mətnin transfoneliterasiyası). 2-ci nəşr. Elmi redaktoru: Azadə Musayeva. Bakı: Elm və təhsil, 380 s.

10. Pfizmaier, August (1847). Grammaire turque ou développement séparé et méthodique des trois genres de style usités, savoir l'Arabe, le Persan et le Tartare. Vienne: Imprimerie impériale et royale de la cour et de l'État.

11. Radloff, W. (1882). Phonetik der nördlichen Türksprachen. Leipzig: T. O. Weigel.

12.Şeyx Səfi təzkirəsi («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi) (2006). Tərtibçilər və nəşrə hazırlayanlar: Möhsün Nağısoylu, Sevər Cabbarlı, Rauf Şeyxzamanlı. Redaktor, izahların və lüğətin müəllifi: Möhsün Nağısoylu. Bakı: Nurlan, 932 s.

13.Будагов, Л. З. (1869–1871). Сравнительный словарь турецко-татарскихъ нарѣчій. Т. I–II. Санкт-Петербург: Типография Императорской Академии Наук.

14.Казем-Бек, Мирза А. (1839). Общая грамматика турецко-татарскаго языка. Казань; Azərbaycan dilinə tərcümə, tədqiq və şərh: İdris Abbasov. Bakı, 2017.

15.Меліоранскій, П. М. (1900). О турецкомъ языкѣ (арабскій текстъ, переводъ и введеніе). Санкт-Петербург: Типография Императорской Академии Наук.

16.Радлов, В. В. (1893–1911). Опыт словаря тюркских наречий = Versuch eines Wörterbuches der Türk-Dialecte. T. I–IV. Санкт-Петербург: Типография Императорской Академии Наук.

HİSTORİCAL PHONETİC VALUES OF THE QĀF (ق) AND ṬĀʾ (ط) GRAPHEMES: THE ARTİCULATORY BASİS OF AZERBAİJANİ TURKİC AND SOUND CHANGES

ABSTRACT

The article examines the historical phonetic values of the kāf (ك), qāf (ق), and ṭāʾ (ط) graphemes in Azerbaijani Turkic texts written in the Arabic script, the articulatory characteristics of the sounds they represented, and the phonetic changes they underwent from the thirteenth century to the present day. The historical development of grapheme–sound correspondences is analysed with reference to the articulatory basis of Azerbaijani Turkic, vowel harmony, sound alternations, and the principles of traditional orthography. The grapho-phonetic observations recorded in Ibn Muhanna's dictionary are compared with linguistic evidence from the works of Pietro Della Valle, Mirza Kazem-Bek, Ahmet Caferoğlu, Lazar Budagov, Wilhelm Radloff, Platon Melioransky, and Mikayil Mushfig. A comparative examination of sources from different historical periods reveals that the same grapheme could represent different phonetic values within the Arabic-script writing tradition and that certain discrepancies existed between conventional spelling and actual spoken usage.

The q–x, q–ğ, and ğ–q alternations recorded by Ibn Muhanna have counterparts in modern Azerbaijani, indicating the historical continuity of these relationships. This evidence requires the sound value of qāf to be interpreted within the phonetic system of Azerbaijani Turkic itself. The study further establishes that, in Turkic words, the ṭāʾ (ط) grapheme did not represent the Arabic emphatic phoneme [tˁ], but primarily functioned as an orthographic sign for /t/ in syllables containing back vowels. During the historical development of Azerbaijani Turkic, the voicing

change t>d occurred in a number of words, whereas the original /t/ was preserved in others. The study also examines the use of the kāf (ك) grapheme to represent /k/, /g/, and the velar nasal /ŋ/ (sağır nun), demonstrating the existence of different manuscript traditions in the graphic representation of these sounds. The findings highlight the necessity of basing the transphoneliteration of Azerbaijani Turkic written monuments in the Arabic script not on the mechanical reading of graphemes, but on their historical phonetic values, positional characteristics, and the specific articulatory features of Azerbaijani Turkic.

Keywords: *qāf (ق); ṭāʾ (ط); kāf (ك); velar nasal /ŋ/ (sağır nun); Ibn Muhanna; Azerbaijani Turkic; historical phonetics; q > x; q > ğ; ğ > q; t > d; articulatory basis.*

ИСТОРИКО-ФОНЕТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ГРАФЕМ КАФ (ق) И ТА (ط): АРТИКУЛЯЦИОННАЯ БАЗА АЗЕРБАЙДЖАНСКОГО ТЮРКСКОГО ЯЗЫКА И ЗВУКОВЫЕ ИЗМЕНЕНИЯ

АННОТАЦИЯ

В статье исследуются историко-фонетические значения графем кяф (ك), каф (ق) и та (ط) в азербайджанско-тюркских текстах, написанных арабской графикой, артикуляционные особенности обозначаемых ими звуков, а также фонетические изменения, произошедшие с XIII века до современного периода. Историческое развитие соотношения между буквой и звуком рассматривается с учётом артикуляционной базы азербайджанского тюркского языка, сингармонизма, звуковых чередований и принципов традиционной орфографии. Графико-фонетические сведения, содержащиеся в словаре Ибн Муханны, сопоставляются с языковыми материалами трудов Пьетро делла Валле, Мирзы Казем-Бека, Ахмеда Джафероглу, Лазара Будагова, Василия Радлова, Платона Мелиоранского и Микаила Мушфига. Сопоставление источников различных исторических периодов выявляет способность одной и той же графемы передавать разные фонетические значения в арабографической письменной традиции, а также наличие определённых расхождений между традиционным написанием и живой разговорной речью. Зафиксированные Ибн Муханной чередования q–x, q–ğ и ğ–q имеют соответствия и в современном азербайджанском языке, что свидетельствует об исторической преемственности этих отношений. Эти данные требуют рассматривать звуковое значение графемы каф в рамках собственной фонетической системы азербайджанского тюркского языка. Установлено, что графема та (ط) в тюркских словах обозначала не арабскую эмфатическую фонему [tˤ], а преимущественно служила орфографическим знаком для передачи /t/ в слогах с гласными заднего ряда. В процессе исторического развития азербайджанского тюркского языка в ряде слов произошло озвончение t>d, тогда как в других сохранился исходный звук /t/.

В исследовании также рассматривается использование графемы кяф (ك) для передачи звуков /k/, /g/ и заднеязычного носового согласного /ŋ/ («сагыр нун») и выявляется существование различных рукописных традиций их графического обозначения. Полученные результаты свидетельствуют о необходимости при трансфонелитерации азербайджанско-тюркских письменных памятников, созданных арабской графикой, опираться не на механическое прочтение графем, а на их историко-фонетические значения, позиционные особенности и специфику артикуляционной базы азербайджанского тюркского языка.

Ключевые слова: *каф (ق); та (ط); кяф (ك); велярный носовой согласный /ŋ/ ("сагыр нун"); Ибн Муханна; азербайджанский тюркский язык; историческая фонетика; q > x; q > ğ; ğ > q; t > d; артикуляционная база.*